

**İlqar Niftəliyev**
*AMEA Tarix və Etnologiya İnstitutunun*
*Elmi işlər üzrə direktor müavini*
*tarix elmləri doktoru, dosent*

## 1. Azərbaycan SSR 1982-1991-ci illərdə

### *Azərbaycan SSR siyasi və sosial təlatümlər ərəfəsində*

1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan SSR bütün sahələrdə yüksək nailiyyətlərlə təcəssüm olunmuş dinamik inkişaf yolunu keçmişdir. 3 dekabr 1982-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi. Plenum Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi və Büro üzvü Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması ilə əlaqədar Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsindən azad edərək bu vəzifəyə Kamran Bağırovu seçmişdir.

1980-ci illərin birinci yarısında respublika iqtisadiyyatı 1970-ci illərin inkişaf meyllərini qoruyub saxlamışdı. Azərbaycan iqtisadiyyatı artıq üçüncü beşillikdir ki, dinamik, davamlı, yüksələn templərlə, orta ümumittifaq göstəricilərini üstələyərək inkişaf edirdi. Hər il təkcə dövlət planları deyil, həm də sənaye və kənd təsərrüfatı istehsalının, sosial inkişafın bütün əsas sahələri üzrə öhdəliklər artıqlaması ilə yerinə yetirilirdi.

1980-ci illərin əvvəllərində respublikanın neft sənayesində yeni inkişaf meyilləri özünü biruzə verdi. Sibirdə və Volqaboyu bölgələrdə böyük miqdarda neft hasil edən Sovet rəhbərliyi, Azərbaycanda neft hasilatı sahələrinin genişləndirilməsi, neft yataqlarının yenidən qurulması üçün vəsaitin ayrılmasını azaltmışdı. Belə bir şəraitdə respublika rəhbərliyi neft emalı sənayesini modernləşdirərək, respublikanın neft maşınqayırma sənayesinin məhsullarının texniki səviyyəsini və keyfiyyətini yüksəltməsi istiqamətində mühüm addımlar atmışdır. Belə ki, 1982-ci ildə Bakı neftayırma zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusundan istifadəyə başlanmışdı. Bu müəssisələrdə 90 adda müxtəlif neft məhsulları – təyyarə, reaktiv qurğu, avtomobil, dizel yanacağı, sürtkü yağları, aşqarlar, bitum, neft-kimya sənayesi üçün xammal istehsal olunurdu. 1983-cü ildə Qroznı-Bakı neft kəməri istifadəyə verilmişdi. 1985-ci ildə Dərin dəniz özülləri zavodu tikilmişdi. Beləliklə, neft hasilatı sahəsindəki mövqelərini itirən Azərbaycan neft emalı və neft maşınqayırması sahəsindəki rolunun gücləndirdi. İttifaq üzrə neft və qaz hasilatı avadanlığı istehsalının

70 %-i Azərbaycanın payına düşürdü[1]. Neft maşınqayırması sənayesi respublika sənayesinin strukturunda 17,1 % təşkil edirdi[2]. Respublikanın sənaye istehsalının 42% - i Bakı və Sumqayıt şəhərlərinin payına düşürdü. 1985-ci ildə Yevlax-Balakən dəmir yolunun inşası onun yaxınlığındakı şəhərlərin və qəsəbələrin zəngin təbii və iqtisadi ehtiyatlarının təsərrüfat dövriyyəsinə fəal cəlb olunması üçün əlverişli şərait yaratmışdır.

1981-1985-ci illərdə tikinti sahəsində də irəliləyişlər baş verdi. Ümumi sahəsi 8 milyon kvadratmetr olan mənzil, 142,3 min şagirdlik ümumtəhsil məktəbi, 27,8 min nəfərlik məktəbəqədər uşaq müəssisəsi, 4,2 min çarpayılıq xəstəxana inşa edilmişdir[3].

Kənd təsərrüfatında əkin sahələrinin 70 %-i pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, çayçılığın və taxılçılığın payına düşürdü. Pambıq istehsalına görə respublika ittifaqda dördüncü yerdə idi. Pambıqçılıqda orta illik məhsul yığımı 1981-1985-ci illərdə 861,4 min ton olmuşdur[4].

Kənd təsərrüfatının ən gəlirli sahələrindən biri kimi, respublikada üzümçülüyün bərpa və inkişaf etdirilməsinə çox ciddi diqqət və qayğı göstərilmişdir. 1984-cü ildə respublikada üzüm istehsalı 2126,4 milyon tona çatdırılmışdı[5] və Azərbaycan üzümçülük sahəsi üzrə ittifaqda birinci yerə çıxmışdı. Lakin 1985-ci ilin mayında Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin sərxoşluğu və alkoqolizmi aradan qaldırmaq haqqında qərarı ilə əlaqədar araq və hər cür möhkəmləndirilmiş şərab istehsalını yarıya endirilməsi və sonra tamamilə dayandırılması, zavodların gücünü şirələrin və alkoqolsuz içkilərin artırılmasına yönəldilməsi respublikada üzümçülüyün sonrakı inkişafına mənfi təsir göstərmişdir. Azərbaycanın üzüm bağlarında şərab sortlu üzüm süfrə sortlu üzümlə əvəz edilirdi. Alkoqol əleyhinə kampaniya 1988-ci ilin sonuna qədər davam etdi və Azərbaycanda min hektarlarla bol məhsul verən üzüm bağları məhv edilmiş, onun emalının inkişaf dinamikası pozulmuşdu.

1980-ci illərin əvvəllərində Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin qəbul etdiyi qərarlar Azərbaycanda heyvandarlığın inkişafı sahəsində təsərrüfat orqanlarının fəaliyyətinin güclənməsinə səbəb olmuşdu, heyvandarlıq məhsulları istehsalına və tədarükünə dair tapşırıqlar, əsasən, yerinə yetirilmişdi. Ət, süd, yun, yumurta istehsalı xeyli inkişaf etmişdi. Quşçuluqda yumurta və ət istehsal edən iri komplekslər yaradılmışdır.

Bu dövrdə Naxçıvan MSSR 21 iri sənaye müəssisəsi fəaliyyət göstərirdi. Artıq 1985-ci ildə Azərbaycanda istehsal olunan daş duzun, üzlük travertinin və şüşə qablar istehsalının hamısı, mineral suların və alt trikotaj məmulatlarının əsas hissəsi,

---

[1] Материалы делегату XXXI съезда Компартии Азербайджана. Баку, 1986, с.39
[2] Yenə orada, c.67
[3] Azərbaycan Kommunist partiyası XXXI qurultayının materialları. Bakı, 1986, s. 10
[4] Материалы делегату XXXI съезда Компартии Азербайджана, с.78
[5] Yenə orada, c.78

konservlərin və ipək xammalının isə 23 faizdən çoxu Naxçıvanın payına düşürdü. 1970-1980-ci illərdə Naxçıvan MSSR-də 4 böyük su anbarı, 10-a yaxın sututar tikilib istifadəyə verilmişdir. Bu hesaba əkin dövriyyəsinə daxil edilən torpaqlar xeyli artırılmış, kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxarılmışdı. Şuşa-Laçın-Biçənək-Naxçıvan təbii qaz xətti, Yevlax-Şuşa-Naxçıvan radio-rele xətləri çəkilmiş, yeni rabitə evləri tikilmiş, hər 3 ailədən biri telefonla təmin olunmuşdu. Energetika və nəqliyyat sahələri də inkişaf etdirilmiş, Araz çayı üzərində 22 meqavat gücə malik su elektrik stansiyası yaradılmış, bütün rayon mərkəzlərində və Naxçıvan şəhərində avtovağzallar, tikilib istifadəyə verilmişdi.

1 yanvar 1986-cı il tarixinə respublikanın əhalisi 6718,2 min nəfər idi. Respublika əhalisinin 53,8% - i şəhər sakinləri təşkil edirdi Əhalinin 49%- i kişilər, 51% - i qadınlar idi[6]. İnzibati baxımdan respublikanın ərazisi 1 muxtar respublikadan (Naxçıvan MSSR), 1 muxtar vilayətdən (DQMV), 61 kənd rayonundan, 65 şəhərdən, o cümlədən 13 vilayət və respublika tabeliyindəki şəhərdən, 120 şəhər tipli qəsəbə və fəhlə qəsəbəsindən, 1107 kənd sovetindən ibarət idi[7].

1985-ci il fevralın 24 -də on birinci çağırış Azərbaycan SSR Ali Sovetinə Sovet Azərbaycanı tarixində son alternativsiz seçkilər keçirilmişdir. Respublikanın Ali Qanunvericilik orqanına seçilən 450 deputatdan 311 kommunist və 139 bitərəf idi.[8] Ali Sovetin deputatları arasında respublikanın əsas sosial təbəqələrinin nümayəndələri təmsil olunurdu: fəhlələr, kəndli-kolxozçular və ziyalılar. Xalq deputatı statusu Mərkəzi Komitənin katiblərinə, hökumət üzvlərinə, vilayət, şəhər və rayon partiya komitələrinin katiblərinə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin və Dağlıq Qarabağ Muxtar Vilayətinin vilayət Sovetinin sədrlərinə, əsas sənaye birliklərinin və müəssisələrinin, elmi və yaradıcılıq müəssisələrinin rəhbərlərinə istehsalatda, yaradıcılıqda yüksək göstəricilərlə fərqlənmiş fəhlə, kəndli və ziyalı kollektivlərinin nümayəndələrinə verilmişdir. Ali Sovet Azərbaycan SSR-də ali dövlət hakimiyyəti orqanı olduğundan, ilk növbədə titul xalqın hakimiyyətini təcəssüm etsə də, xalq nümayəndələrinin milli tərkibinə azərbaycanlılardan başqa, ilk növbədə, respublikanın ən iri milli azlıqlarının nümayəndələri də (ruslar, ermənilər) daxil edilmişdir.

1980-ci illərin ortalarında SSRİ-də, o cümlədən Azərbaycanda dərin iqtisadi böhranın ilk əlamətləri özünü biruzə verməyə başlamışdır. Respublikanın şəhərlərində əhaliyə ət və yağ talon ilə verilirdi. Bir çox sənaye malları üzrə - geyim, mebel, avtomobillər- daim qıtlıq və növbələr vardı. Bu isə əhalinin yaşayış şəraitinə mənfi təsir göstərirdi, rüşvətə, bölüşdürmə münasibətləri sistemindəki pozuntulara, kölgə

---

[6] Материалы делегату XXXI съезда Компартии Азербайджана, с. 41

[7] Yenə orada, c. 45

[8] Sov.İKP XXVI qurultayından Azərbaycan Kommunist Partiyası XXX qurultayından sonrakı dövrdə Azərbaycan SSR Ali Sovetinin fəaliyyəti haqqında informasiya-məlumat materialları. Bakı, 1986, s.55

bazar iqtisadiyyatının inkişafına səbəb olurdu. Əhalinin tam məşğulluğunu təmin etmək mümkün olmamışdı. İqtisadi çətinliklər, artan narazılıqlar gənclərin kənd yerlərindən şəhərlərə və respublikadan kənara sürətli axınına səbəb olmuşdu.

***Mərkəzin "Yenidənqurma" ritorikası və Azərbaycan rəhbərliyi.***

1985-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyasına rəhbərliyə gələn M.S.Qorbaçov Mərkəzi Komitənin Aprel plenumunda iqtisadi və sosial-mədəni tərəqqinin "sürətləndirmə konsepsiyası"nı irəli atdı. İri sənayedə elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tədbiqi, istehsal münasibətlərini təkmilləşdirilməsi, təsərrüfat hesabının, icarə sisteminin tədbiqi, kooperasiyanın inkişafı, müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatlara bərabər imkanlar yaratmaq haqqında qanun və qərarlar qəbul olundu. Lakin onların işləməsi üçün münasib şərait yaranmadı. Bütün uğursuzluqları əvvəlki rəhbərliyin üzərinə qoymaq cəhdləri, kadr təmizləmələri, korrupsiyaya qarşı mübarizə və s. tədbirlər də vəziyyəti dəyişmədi. Çünki təkpartiyalı siyasi sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqlarını özlərinə qaytarmadan iqtisadiyyatı dirçəltmək mümkün deyildi.

1987-ci il Sov.İKP Mərkəzi Komitəsinin Yanvar plenumunda Qorbaçov "Yenidənqurma və kadr siyasəti barədə" adlı məruzə ilə çıxış etdi. Beləliklə ilk dəfə "Yenidənqurma" termini rəsmi partiya sənədlərində əsas yer tutdu. Qorbaçov yenidəqurmanı durğunluq proseslərin qətiyyətlə aradan qaldırılması, sovet cəmiyyətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün etibarlı və effektiv mexanizmin yaradılması kimi müəyyənləşdirmişdi. Plenum partiya və sovet orqanlarının rəhbər kadrlarının yenilənməsinə təkan verdi. Bir sıra tanınmış partiya xadimləri Siyasi büronun və Mərkəzi Komitənin tərkibindən çıxarıldı. Həmin plenumda eyni zamanda yeni siyasi xətt - "aşkarlıq və demokratiya xətti" qəbul edildi. Bu siyasətin əsasında seçki sisteminin demokratikləşməsi, alternativ əsasda seçkilərin keçirilməsi, Sovetlərin hüquqlarının genişləndirilməsi, partiyadaxili münasibətlərin demokratikləşməsi və s. məsələlər dururdu.

K. Bağırovun başçılığı etdiyi respublika rəhbərliyi ölkədə baş verən prosesləri ciddi qəbul etməmiş, "yuxarıdan" irəli sürülmüş sürətləndirmə, demokratiya və aşkarlıq çağırışlarını növbəti kampaniya, yeni bir siyasi hiylə kimi qəbul etmişdir. Buna görə rəsmi Bakı "yenidənqurma" nın bir sıra müsbət meyillərinin inkişafını məhdudlaşdırmağa çalışırdı, iqtisadi və sosial siyasətə yanaşmalarda yaradıcılıq və təşəbbüs nümayiş etdirmirdi. Respublikanın ən yüksək partiya və sovet rəhbərliyinin davranışının səciyyəvi xüsusiyyətləri ətalət və mühafizəkarlıq idi. Nəticədə, Dağlıq Qarabağdakı hadisələr başlayanda, Azərbaycan rəhbərliyi bu həlledici məqamda ölkədəki hər etirazı xalqların dostluğuna xələl gətirəcək fakt kimi qəbul edərək

qətiyyətsiz bir mövqe tutdu , yaranmış təhlükəni və onun respublika üçün mümkün fəlakətli nəticələrini qiymətləndirə bilmədi.

### *Qarabağ münaqişəsinin başlanması. Sumqayıt təxribatı.*

Əslində, Dağlıq Qarabağ münaqişənin yeni mərhələsi, demək olar ki, Qorbaçovun SSRİ rəhbərliyinə gəldiyi andan alovlanmağa başladı. Kreml rəhbərliyi Ermənistan və Dağlıq Qarabağdakı əhval-ruhiyyə haqqında yaxşı məlumatlı idi, orada nələrin olduğunu və nəyin hazırlandığını yaxşı bilirdi, Dağlıq Qarabağın Ermənistana verilməsinə dair Ermənistanda və DQMV-da imzalar toplanırdı. Qorbaçovun ətrafında işləyən, Moskvada yaşayan tanınmış ermənilər Qarabağdakı separatçı hərəkatı müdafiə edirdilər. Onlar ittifaq və xarici qəzetlərə verdiyi müsahibələrdə Dağlıq Qarabağın ilhaq olunması fikrini açıq şəkildə qoyurdular.

Azərbaycan SSR-in rəhbərliyi də Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdən xəbərdar idi. 1980-ci illərin ortalarından başlayaraq DQMV-nin partiya rəhbərliyi və yerli təhlükəsizlik orqanları Azərbaycan rəhbərliyinə mütəmadi olaraq muxtar vilayətdə millətçi təzahürlərin fəallaşması ilə barədə məlumat verirdilər. Lakin Bakı bütün bunlara barmaqarası baxırdı, lazımi reaksiya-göstərmirdi. 1984-ci ildə Ermənistan millətçi qüvvələrinin liderlərindən biri Zori Balayanın "Ocaq" kitabına da rəsmi səviyyədə reaksiya verilməmişdi. Azərbaycanın ali orqanlarına müxtəlif kanallar vasitəsilə gələn siqnallara reaksiyanın olmaması, erməni tərəfini ərazi tələblərini daha israrla irəli sürməyə təhrik edirdi. Nəticədə 20 fevral 1988-ci ildə XX çağırış DQMV Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxarılması və Ermənistan SSR-in tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırılması haqqında qərar qəbul etmişdir. Beləliklə, nişanlanmış Qarabağ kartı oyuna girdi.

Artıq 1987-ci ilin sonundan etibarən Ermənistanın azərbaycanlı əhalisi güclü mənəvi və psixoloji təzyiqlərə, təhdidlərə məruz qalırdı və azərbaycanlılara qarşı fiziki zorakılıq faktları artmışdı. Bunun nəticəsi olaraq Ermənistanın Qafan və Mehri rayonlarından yüzlərlə qaçqın azərbaycanlı Azərbaycana pənah gətirdi. Onların böyük bir hissəsi Bakıda və Sumqayıtda toplanmışdı. 1988-cı ilin fevralında Ermənistanın 20 rayonundan Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. Lakin İrəvanda oturan millətçilər Qarabağa olan ərazi iddialarını əsaslandırmaq üçün Azərbaycanda erməni əhalisinin hüquqlarının pozulduğunu və hər iki xalqın birgə yaşamasının qeyri-mümkün olduğunu sübut etməyə çalışırdılar. Bunun üçün onlar öz soydaşlarının qanını tökmək, bunda azərbaycanlıları günahlandırmaq və sonradan bunun ətrafında bir təbliğat şousu təşkil etmək istəyirdilər. Bu əsrlər boyu sınaqdan çıxmış erməni üsulu idi. 28-29 fevral tarixlərində Sumqayıt təxribatı zamanı ermənilər

bu üsuldan məharətlə istifadə etmişdilər. Sumqayıt hadisələrinin gedişində 32 nəfər öldürülmüşdür. Onların 24 nəfəri erməni, 5 nəfəri azərbaycanlı, qalanları isə digər xalqların nümayəndələri idi[9]. Sumqayıt faciəsi erməni millətçiləri tərəfindən çox düşünülmüş şəkildə planlaşdırılmışdı. Onlar şəhərin müxtəlif yerlərində, əsasən insanların sıx olduğu yerlərdə quraşdırılmış kameralar vasitəsi ilə video çəkilişlər aparmışdılar. Hadisələrdən bir gün sonra bu videolar Sovet İttifaqı xaricində yayıldı. Bu faktlar bir daha sübut edir ki, Sumqayıtdakı qanlı hadisələrin əsl təşkilatçıları hadisələrin başlama vaxtını və yerini əvvəlcədən bilirdilər[10]. Sumqayıt hadisələrindən sonra Qarabağ münaqişəsi daha da dərinləşdi. Erməni millətçiləri ümumittifaq və beynəlxalq miqyasda anti-Azərbaycan təbliğat kampaniyasına başladılar.

***Respublika rəhbərliyinin dəyişilməsi və böhranın dərinləşməsi.***

Sumqayıt hadisələrindən sonra Moskva Ermənistanda və Azərbaycanda partiya rəhbərliyini dəyişmək qərarına gəldi. 1988-cilin mayın 21-də keçirilən Azərbaycan KP Mərkəzi Komitəsinin Plenumunda Kamran Bağırovun əvəzinə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə əvvəllər Nepalda və Pakistanda səfir işləmiş və ümumiyyətlə, 12 il respublikada olmamış Əbdürəhman Vəzirov təyin edildi. Rəhbərliyə gəldiyi ilk günlərdən respublikanın problemləri ilə bağlı səthi biliklərə malik olan Vəzirov Ermənistanın Azərbaycana ərazi iddialarının yeni mərhələsinin mahiyyətini anlamamış, keçmiş "beynəlmiləlçi" mövqedən yanaşmışdı. Ana dilini yaxşı bilməyən, respublikada gedən mürəkkəb ictimai-siyasi və sosial-iqtisadi proseslərdən bixəbər olan Vəzirov "yenidənqurma"nın doğurduğu eyforiyaya qapılaraq populist hərəkətləri ilə xalqın rəğbətini qazanmağa çalışırdı. Lakin əvvəlki rəhbərlik kimi Vəzirovda da Qarabağ münaqişəsinin və Ermənistandan azərbaycanlıların deportasiyası probleminin həllində taktiki çeviklik və müdriklik çatmadı. Qarabağ münaqişəsi ilə bağlı birinci dərəcəli vəzifələri həll etmək əvəzinə, Vəzirov özünün ilk çıxışlarından ictimaiyyətin diqqətini daxildə düşmən axtarışına, əvvəlki rəhbərliyin ünvanına əsassız tənqidlərə yayındırmağa çalışırdı. Bu Azərbaycan cəmiyyətində daxili qarşıdurmaya aparırdı. Vəzirovun xalqa, onun milli mənafelərinə zidd siyasəti Dağlıq Qarabağ məsələsində erməniləri öz məqsədyönlü niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi.

1988-ci il iyunun 15-də Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Bu qərar sonradan "qanunlar müharibəsi"nin əsasını qoydu. Hər iki respublikanın ali qanunvericilik orqanları ənənəvi sovet

---

[9] Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı, 2016, s. 426

[10] Зия Буниятов. Почему Сумгаит? (ситуационный анализ)// История Азербаиджана по документам и публикациям. Баку, 1990, с.363

"demokratik mərkəzçilik" prinsipini pozaraq bir-birinə qarşı qanunvericilik aktlarını qəbul etdilər. İyunun 17-də Azərbaycan SSR Ali Soveti əks-qətnamə qəbul edərək Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu bir daha təsdiqlədi[11]. Kreml isə hadisələrin axarını öz əlinə almaq məqsədilə Dağlıq Qarabağ problemini SSRİ Ali Sovetinin Rəyasət Heyətinin iclasında müzakirəyə-çıxarmağı qərara aldı. İyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin xüsusi iclası keçirildi. Həmin iclasda Ali Sovetin Rəyasət Heyətinin tərkibində olan Sovet İttifaqının bütün xalqlarını və bölgələrini təmsil edən İttifaq respublikaların rəhbərləri, görkəmli ictimai və siyasi xadimləri iştirak edirdilər. Müzakirənin ümumi nəticəsi kimi SSRİ Ali Soveti Rəyasət Heyətinin "Ermənistan SSR və Azərbaycan SSR-in Ali Sovetlərinin Dağlıq Qarabağla bağlı qərarları haqqında" qərar qəbul edildi. Həmin qərarda qeyd olunurdu ki, Ermənistan SSR Ali Sovetinin 1988-ci il 15 iyun tarixində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə keçməsi haqqında SSRİ Ali Sovetinin Rəyasət Heyətinə müraciəti nəzərə alınaraq Azərbaycan SSR-nin və Ermənistan SSR-nin konstitusiya yolu ilə müəyyən edilmiş sərhədlərinin və milli-ərazi bölgüsünün dəyişdirilməsini qeyri-mümkün hesab edilir[12].

İyulun 25-də Sov. İKP MK və SSRİ Ali Soveti Rəyasət Heyəti "Dağlıq Qarabağ məsələsi ilə bağlı SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qətnaməsinin yerinə yetirilməsinə dair əməli tədbirlər haqqında" qərar qəbul etdi. Bu qərara uyğun olaraq 1988-ci ilin sentyabr ayında Sov. İKP MK və SSRİ Ali Sovetinin Rəyasət Heyətinin nümayəndəsi A.İ.Volski Dağlıq Qarabağda fəaliyyətə başladı. Lakin yuxarıdakı qərarlar erməni tərəfini muxtar vilayətin Ermənistan SSR-ə verilməsinə nail olmaq kimi qeyri-qanuni cəhdlərindən döndərmədi. Dağlıq Qarabağdakı erməni və azərbaycanlı icmaları arasındakı münasibətlər tədricən silahlı qarşıdurma mərhələsinə qədəm qoyurdu.

Ermənistandan azərbaycanlı əhalisinin kütləvi şəkildə Azərbaycana deportasiyası respublikanın paytaxtında ictimai-siyasi vəziyyəti getdikcə gərginləşdirmiş və sosial partlayış dərəcəsində çatdırmışdı. Noyabrın 17-də Bakıda təsiri tez bir zamanda respublikanın hər tərəfinə yayılan çoxgünlük mitinq başlandı. İnsanlar Ermənistanın azərbaycanlı əhalisi üçün möhkəm təhlükəsizlik zəmanəti, DQMV-də Azərbaycan qanunlarının aliliyinin bərpasını tələb edirdilər, bəziləri ümumiyyətlə çıxış yolunu bölgənin inzibati muxtariyyətinin ləğv edilməsində gördülər. Bu hadisələr vaxtı ilk dəfə olaraq Ermənistanın azərbaycanlı əhalisinə muxtariyyət verilməsi tələbləri irəli sürüldü. Noyabrın 17-dən dekabrın 5-dək paytaxtın əsas meydanında mitinq (o vaxt V.İ.Lenin, daha sonra "Azadlıq" meydanında) müddətsiz elan edildi. Bu şəraitdə hakimiyyət fövqəladə tədbirlər görməli oldu - paytaxtda və digər yerlərdə komendant saatının tədbiq olunması

[11] Бакинский рабочий, 1988, 18 июня
[12] Правда, 1988, 20 июля.

haqqında qərar qəbul etdi. Bu, xalqla dialoq aparmaq, respublikadakı çətin ictimai-siyasi vəziyyətə nəzarət etmək iqtidarında olmayan hakimiyyətin böhrandan çıxmaq üçün məcburi addımı idi.

1988-ci il noyabrın sonu - dekabr ayında azərbaycanlıların Ermənistandan tamamilə qovulmasının sonuncu mərhələsi başlandı. Bu proses 1991-ci ilin avqust ayında qərbi Zəngəzurun Nüvədi kəndindən azərbaycanlıların qovulması ilə başa çatdı. Nəticədə 200 minə yaxın azərbaycanlı həyatlarını xilas etmək üçün Azərbaycana pənah gətirdilər. Beləliklə. erməni millətçilərin "Ermənistan ermənilər üçün" şüarı həyata keçirildi. 1988-ci ilin nəticələri göstərdi ki, Sovet rəhbərliyinin niyyətindən asılı olmayaraq, onun siyasi və təşkilati səylərinin qeyri –ardıcıllığı, münaqişənin günahkarı ilə qurbanı arasında fərq qoyulmaması və beləliklə, ədalətli hakim rolundan imtina etməsi münaqişənin şiddətlənməsinə səbəb olurdu və separatçıların məqsədlərinə çatacaqlarına ümidlərini artırırdı. Nəticədə muxtar vilayət təkcə Bakının deyil, Moskvanın da nəzarətindən tamamilə çıxdı. Azərbaycanlıların Ermənistandan deportasiyasından sonra milli münaqişə azərbaycanlıların DQMV-dən qovulması ilə nəticələndi. Beləliklə, bölgənin Azərbaycandan tamamilə ayrılması üçün möhkəm təməl qoyuldu.

1989-cu ilin əvvəlində Dağlıq Qarabağ böhranı Azərbaycan üçün daha təhlükəli, keyfiyyətcə yeni mərhələyə daxil oldu. 1989-cu il yanvarın 12 -də guya vəziyyəti normallaşdırmaq üçün SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə yaradılmış A.Volskinin başçılıq etdiyi DQMV Xüsusi İdarə Komitəsi (XİK) vilayətin idarə olunmasından respublika orqanlarını faktiki olaraq kənarlaşdırdı[13]. XİK-in köməyi ilə DQMV-nin Azərbaycanla bütün iqtisadi, siyasi və mədəni əlaqələri kəsildi. Fürsətdən istifadə edən erməni tərəfi Qarabağ probleminin zorakı yolla həlli üçün yaraqlı dəstələrinin formalaşdırılması prosesini sürətləndirdi. Volskinin rəhbərlik etdiyi XİK-in yaratdığı əlverişli şəraitdən istifadə edən erməni yaraqlıları 1989-cu il yayın əvvəllərində Azərbaycan icmasının DQMV-dən tamamilə sıxışdırıb çıxarılması üçün geniş miqyaslı əməliyyatlara başladılar. Əgər indiyə kimi Dağlıq Qarabağ ərazisindəki erməni yaraqlılarının fəaliyyəti əsasən ayrı-ayrı azərbaycanlılara qarşı terror aktlarının təşkilinə yönəlmişdisə, artıq 1989-cu ilin yayından etibarən vilayətin azərbaycanlı əhalisinin məskunlaşdığı yaşayış məntəqələrinin blokadaya alınmasına başlandı. Azərbaycanlıların Dağlıq Qarabağdan qovulması prosesini sürətləndirmək məqsədi ilə erməni yaraqlıları azərbaycanlı əhalinin yaşayışını təmin edən təsərrüfat obyektlərini və nəqliyyat kommunikasiyalarını məhv etməyə çalışırdılar. 1989-cu ildə SSRİ-də keçirilmiş əhalinin ümumittifaq siyahıya alınması zamanı DQMV-nin 189 min 29 nəfər əhalisinin 145 min 450 nəfərinin (77%) erməni, 40 min 632 nəfərinin (21%) isə azərbaycanlı olduğu gostərilirdi[14]. Lakin ümumittifaq siyahıya alınmasının bu

[13] Бакинский рабочий, 1989, 15 января
[14] http://www.ethno-kavkaz.narod.ru/rnkarabax.html

məlumatlarını düzgün və obyektiv saymaq olmaz. Ona görə ki, bu dövrdə DQMV-nin əhalisi siyahıya alınarkən burada yaşayan ermənilərin sayı şişirdilmişdi. Yəni rəsmən vilayətdə qeydiyyatda olan, lakin Ermənistan SSR-də, yaxud SSRİ-nin başqa şəhərlərində daimi yaşayan və işləyən ermənilər vilayətin sakini kimi qələmə verilmişdilər. Digər tərəfdən, bu dövrdə Dağlıq Qarabağa Ermənistandan və bir sıra xarici ölkələrdən gələn və yaraqlı dəstələrin üzvləri olan ermənilər muxtar vilayətin sakinləri kimi göstərilmişdi. Bununla yanaşı, Dağlıq Qarabağ bölgəsində tarixən yaşamış azərbaycanlılar isə siyahıya alınarkən artıq Xankəndidən və vilayətin bəzi azərbaycanlılar yaşayan kəndlərindən qovulmuşdu və siyahıya alma zamanı bu faktlar bilərəkdən nəzərə alınmamışdı.

### *Azərbaycan Xalq Cəbhəsinin yaradılması.*<br>*Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda*<br>*xalq hərəkatının genişlənməsi.*

Erməni separatçılarının Dağlıq Qarabağdakı cinayətkar əməllərinin cəzasız qalması və bütün bunlara respublika rəhbərliyinin seyrçi mövqeyi Azərbaycanın ərazi bütövlüyünü və real suverenliyini təmin etmək üçün geniş xalq kütlələrini arxasınca apara biləcək yeni ictimai-siyasi təşkilatın yaranmasını zəruri edirdi. 1989-cu il iyulun 16-da Bakıda yarımleqal şəraitdə Azərbaycan Xalq Cəbhəsinin (AXC) təsis konfransı keçirildi. Qəbul olunmuş proqramında AXC SSRİ tərkibində Azərbaycanın siyasi, iqtisadi və mədəni suverenliyinə nail olmağı öz siyasi fəaliyyətinin əsas məqsədi hesab edirdi. Əbülfəz Əliyev AXC-nin sədri seçildi. 1989-cu il oktyabrın 5-də AXC Azərbaycan SSR Nazirlər Soveti tərəfindən rəsmən qeydə alındı. Dekabrın 24-də isə AXC-nin mətbu orqanı olan "Azadlıq" qəzetinin ilk nömrəsi çapdan çıxdı.

1989-cu ilin iyul-avqust aylarında AXC-nin təşkilatçılığı ilə Bakının baş meydanında çoxminlik mitinqlər keçirildi. Sentyabrın əvvəlində Azərbaycanın bütün iqtisadiyyatını əhatə etmiş ümummilli tətil başlandı. Əhalinin normal həyat fəaliyyətini təmin edən müəssisələr və səhiyyə idarələri, habelə neftçıxarma sənayesi istisna olmaqla, Bakıda bütün müəssisələr öz işini dayandırdı. Sumqayıt, Gəncə, Əli Bayramlı, Lənkəran və respublikanın digər şəhər və rayonlarının sənaye müəssisələrində də iş dayandı. Böyük iqtisadi itkilər və zəhmətkeşlərin tətili davam etdirmək qətiyyəti respublika rəhbərliyini AXC ilə danışıqlara getməyə məcbur etdi. Azərbaycan Ali Sovetinin Rəyasət Heyəti sentyabrın 15-də Ali Sovetin fövqəladə sessiyasının çağırılması haqqında qərar qəbul etdi. Ali Sovetin sessiyası "DQMV-də vəziyyət haqqında" qərar qəbul etdi. Həmin qərarla SSRİ Ali Soveti qarşısında DQMV-də Xüsusi İdarə Komitəsinin ləğv olunması məsələsi qaldırılırdı[15]. Azərbaycan

[15] Бакинский рабочий, 1989, 19 сентября

Ali Sovetinin Rəyasət Heyəti 15 sentyabr tarixli qərarı XİK-nin bundan sonrakı fəaliyyətinin qeyri mümkün hesab edərək, ittifaqın Ali qanunverici orqanını bu məsələyə qayıtmağa və yenidən nəzərdən keçirməyə məcbur etdi.

Beləliklə, ilk dəfə olaraq respublika İttifaq qanunlarının aliliyini nəzərə almadan öz hakimiyyətinin üstünlüyü mövqeyindən çıxış etdi. Bu o nadir hal idi ki, Azərbaycan SSR öz siyasi maraqlarını Sovet Federasiyasının müstəqil subyekti kimi ifadə edirdi. XİK-nın ləğvi barədə qərara Moskvanın gələcək reaksiyası qarşısında mövqeyini möhkəmləndirmək üçün 23 sentyabr 1989-cu il tarixində Azərbaycan SSR Ali Soveti respublikanın suverenliyi haqqında qərar qəbul etdi. Bu qərarın 5 maddəsində xüsusilə qeyd olunurdu ki “Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayətini əhatə edən respublikanın bütün ərazisinə şamil edilir. Azərbaycan SSR-in ərazisi Azərbaycan SSR Ali Sovetinin qərarı ilə respublikanın bütün əhalisi arasında keçirilən xalq səsverməsi (referendum) ilə ifadə olunan razılığı olmadan ayrılmazdır və dəyişdirilə bilməz. Azərbaycan SSR-in digər ittifaq respublikaları ilə sərhədləri yalnız müvafiq ittifaq respublikalarının qarşılıqlı razılığı ilə dəyişdirilə bilər......6. Azərbaycan SSR Qanunları Azərbaycan SSR-in bütün ərazisində qüvvədədir. Azərbaycan SSR ərazisində Azərbaycan SSR-in suveren hüquqlarını pozmayan SSRİ qanunları qüvvədədir"[16].

XİK-nin ləğvi barədə qərardan sonra bu qanunun qəbul olunması Qarabağ münaqişəsinin yaratdığı siyasi vəziyyətdə respublikanın suverenliyinin xaricdən müdaxilə təhlükəsindən qorunmasının qanunvericiliklə təmin etmək istəyinin ifadəsi idi. Beləliklə, ilk dəfə olaraq respublika hakimiyyətinin ən ali qanunverici orqanı İttifaq Konstitusiyasına zidd olan qərarlar qəbul edərək Mərkəzi hakimiyyətin qanunlarına qarşı çıxdığını nümayiş etdirdi. 1989-cu il noyabrın 28-də SSRİ Ali Soveti XİK-in ləğvi haqqında qərar qəbul etdi. Lakin SSRİ Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağın Azərbaycanın siyasi-hüquqi nəzarəti altına "qaytarılması" bir sıra şərtlərlə nəzərdə tutulurdu: “3. DQMV ilə paritet əsaslarla Respublika Təşkilat Komitəsi yaradılsın və 20-ci çağırış DQMV Xalq Deputatları Sovetinin və onun İcraiyyə Komitəsinin fəaliyyəti bərpa edilsin. 4. Azərbaycan SSR Ali Sovetinə ən qısa müddətdə real muxtariyyət statusunun yüksəldilməsini, Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni əhalisinin təminatını, qanunçuluğa riayət olunmasını, vətəndaşların həyat və təhlükəsizliyinin qorunmasını, yaranan bütün problemlərin Konstitusiya qaydalarına uyğun həllini təmin edən qanunvericilik tədbirlərinin görülməsi tövsiyə edilsin... 6. Əhalinin təhlükəsizliyini qorumaq və təmin etmək üçün ictimai-siyasi vəziyyət normallaşana qədər SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının müvafiq kontingentini müttəfiq nəzarət-müşahidə Komissiyasına tabe olmaqla Dağlıq Qarabağ Muxtar Vilayətində saxlamaq"[17]. Əslində, bu maddələr Azərbaycan Ali

---

[16] Бакинский рабочий, 1989, 5 октября.

[17] Правда, 1989, 29 ноября

Soveti tərəfindən Azərbaycan SSR-nin suverenliyi haqqında 23 sentyabr 1989-cu ildə qəbul olunmuş qanuna tam zidd idi. Çünki respublikanı bölgədəki vəziyyətə öz hüquq-mühafizə orqanları vasitəsi ilə nəzarət etmək imkanından məhrum edirdi və DQMV üzərində suverenliyini məhdudlaşdırırdı. Qanunda münaqişə dövründə DQMV-ni tərk etmək məcburiyyətində qalan azərbaycanlıların da məsələsi əksini tapmamışdı.

### *Mərkəzin Azərbaycanda milli hərəkatı boğmaq cəhdləri. 20 Yanvar faciəsi.*

1989-cu il dekabr ayının sonunda Sovet-İran sərhədindən Bakıya biri-birindən həyəcanlı məlumatlar gəlməyə başladı. SSRİ-nin dövlət sərhədi onlarla kilometr boyunca məhv edilmiş, Arazın hər iki tərəfində minlərlə insan qarşılaşmışdır. Lakin Moskva Şərqi və Qərbi Berlin arasındakı dəmir-beton divarın sökülməsini yeni düşüncə tərzi adlandırırdısa da, sərhəddən 0,5 km məsafədən keçən Naxçıvan və Cəlilabaddakı tikanlı məftillərin sökülməsini ekstremistlərin əməlləri kimi qiymətləndirmişdi. Bu hadisələri Moskva müttəfiq respublikalardan birində sovet hakimiyyətinin devrilməsi və SSRİ-dən ayrılma təhlükəsi kimi qiymətləndirdiyi üçün adekvat cəza tədbirləri hazırlamağa başladı.

Ermənistan –Azərbaycan sərhədinidən gələn məlumatlar isə artıq hərbi hesabatları xatırladırdı. Ermənistan tərəfindən Naxçıvanın azərbaycanlı kəndlərinə hücumlar başladı, Qarabağdakı Azərbaycan kəndləri artıq Alazan raketlərindən atəşə tutulurdu. Bu hadisələrdən istifadə edən Moskva 15 yanvar 1990-cı ildə DQMV-də və Azərbaycan SSR-nin ona bitişik rayonlarının ərazisində fövqəladə vəziyyət elan etdi. Lakin bu proseslər respublikanın paytaxtında vəziyyəti daha da gərginləşdirdi və respublika partiya rəhbərliyinin istefası tələbilə mitinqlər keçirilirdi.

Sovet qoşunlarının Bakıya müdaxiləsi ərəfəsində şəhərin müəyyən rayonlarında xidmət orqanları tərəfindən təxribatlar törədilməyə başlandı. Bu cür təxribatların əsas məqsədi Bakıda sabitliyi pozmaq idi.

13 yanvar 1990-cı ildə AXC tərəfindən Qarabağın müdafiəsi üçün vəsait toplamaq məqsədilə Milli Müdafiə Şurası yaradılmışdı. 1990-cı il yanvarın əvvəllərindən Moskvadan Bakıya müxtəlif səviyyəli emissarlar gəlməyə başladı. Respublika televiziyasında və mitinqlərdə çıxışları vaxtı onlar xalqı şəhərdə fövqəladə vəziyyətin tətbiq olunmayacağını, qoşunların girməyəcəyini və etirazçıların bütün tələblərinin yerinə yetiriləcəyinə inandırmağa çalışırdılar. Lakin Moskvanın emissarlarının AXC liderləri ilə apardıqları danışıqlar sonuncuların hakimiyyətə qarşı barışmaz mövqeyini göstərdi. Kreml bu qüvvələri bəhanə edərək sərt tədbirlərə əl atdı. Beləliklə, Moskva yalnız Azərbaycan müxalifəti üçün deyil, həm də gələcəkdə İttifaqın digər respublikalarında sovet hakimiyyətini devirməyə cəsarət etmək istəyən qüvvələrə dərs olacaq gözlənilməz zərbə vurmağa hazırlaşırdı.

19 yanvar 1990-cı ildə Qorbaçov 20 yanvar saat 00: 00-dan etibarən "Bakıda fövqəladə vəziyyətin tətbiqi haqqında" fərman imzaladı. Respublika televiziyasının enerji blokunun partladılması səbəbindən nə televiziya, nə də radio əhaliyə fövqəladə vəziyyət rejiminin tətbiqi haqqında məlumat verə bilmədi. Nəticədə, hərbi hissələr əhalini xəbərdar etmədən yanvarın 19-dan 20-nə keçən gecə Bakıya hücuma keçdilər. Əməliyyat nəticəsində 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar, ümumilikdə isə 131 nəfər öldürülmüşdü. Bundan əlavə, hərbi əməliyyat zamanı 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuşdu.

Yanvarın 22-də Bakıda hadisələr zamanı həlak olanların xatirəsinə dəfn mərasimi keçirildi. Burada bir milyondan çox insan iştirak etmişdir. Moskva Bakıdakı hadisələr ətrafında sərt informasiya blokadası yaratdı. Hadisələrdən sonra respublika televiziyası bir ay işləmədi. Yerli qəzetlər dərc olunmadı. O günlərdə mərkəzi "Pravda", "İzvestiya", "Krasnaya Zvezda" qəzetləri və mərkəzi mətbuatın digər nəşrləri hadisələrlə bağlı yaydıqları məlumatlarda Bakıda hərbi əməliyyat keçirilməsini şəhərdə yaşayan erməni və rus ailələrinin yerli “ekstremistlərdən” qorumaq üçün zəruri olduğunu sübut etməyə çalışırdılar.

## *Azərbaycanda Kommunist hakimiyyətinin iflası və respublikanın müstəqilliyinin bərpası.*

Qanlı Yanvar hadisələrindən sonra respublikada son iki ildə ikinci dəfə rəhbərlik dəyişdi. 20 yanvarın səhəri hərbi təyyarədə Moskvaya qaçan Ə.Vəzirovun yerinə Kreml yanvarın 25-də Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovu respublika partiya təşkilatının yeni başçısı təyin etdi. 1990-cı ilin may ayında Azərbaycanda prezident vəzifəsi təsis edildi və Mütəllibov Ali Sovet tərəfindən respublikanın prezidenti seçildi. Eyni zamanda, Yanvar hadisələrindən sonra daxili ixtilaflarla parçalanan Xalq Cəbhəsinin bir sıra fəallarının həbsi, fəaliyyəti üçün dəqiq bir proqramın olmaması onu respublikanın siyasi səhnəsindən bir qədər uzaqlaşdırdı. (Ulu öndər Heydər Əliyevin 1990-cı ilin yanvar hadisələrinə münasibəti növbəti paraqrafda nəzərdən keçirilir.-red.)

Azərbaycanda prezident idarəetmə forması tətbiq olunsa da, Kommunist partiyası respublikada hakimiyyətini qoruyub saxlamaqda davam edirdi. 1 aprel 1990-cı il tarixinə Azərbaycan partiya təşkilatında kommunistlərin sayı 397381 nəfər idi. 1985-1990 – cı illər ərzində partiya sıralarından 15 mindən çox insan, o cümlədən Yanvar hadisələri zamanı 11084 nəfər partiya sıralarını tərk etmişdir[18]. 1990-cı ilin iyun-iyul aylarında Azərbaycan Kommunist partiyasının XXXII qurultayı keçirildi. Qurultayda ilk dəfə olaraq partiyanın proqramının və nizamnaməsinin hazırlanması barədə qərar

---

[18] Материалы XXXII съезда Коммунистической партии Азербайджана. Баку, 1991, с. 13

qəbul edildi[19]. Lakin, hakimiyyətin bütün səylərinə baxmayaraq, partiya əvvəlki nüfuzunu itirmişdi. Respublikanın ərazi bütövlüyünü itirmək təhlükəsi qarşısında xalqı öz ətrafında birləşdirə bilməməsi və bunun nəticəsi kimi 1990-cı ilin Kreml tərəfindən "Qanlı Yanvar" hadisələrinin törədilməsi Azərbaycan partiya təşkilatının nüfuzuna böyük zərbə vurmuşdu.

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 6 dekabr 1989-cu il tarixli qərarı ilə yaradılmış DQMV üzrə Respublika Təşkilat Komitəsi yalnız 1990-cı il yanvarın sonunda fəaliyyətə başlamışdır. Lakin bundan sonrada Azərbaycan rəhbərliyi Ermənistanın ərazi iddialarının qarşısının alınmasında aciz olduğu üçün əsasən bölgədə yerləşən SSRİ DİN və sovet ordusunun hərbi birləşmələrinə arxalanırdı. 1990-cı ildən başlayaraq erməni silahlı birləşmələri Azərbaycana qarşı təcavüzünü genişləndirərək, artıq Qarabağdan kənar sərhəd kəndlərə basqınlar edirdilər. 1990-cı ilin əvvəllərində Azərbaycanın Qazax rayonunun Ermənistanla sərhədində vəziyyət gərginləşməyə başladı. Martın 24-də ermənilərin silahlı hücumu nəticəsində Bağanıs-Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmış, 1 nəfər yaralanmış, 13 yaşayış evinə od vurulmuşdur. Qazax rayonu ərazisində baş vermiş qanlı hadisələrdən sonra Azərbaycan SSR KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 28 mart 1990-cı il tarixində keçirilmiş fövqəladə birgə iclasında Naxçıvan MSSR, Qazax, Gədəbəy, Kəlbəcər və Ermənistanla həmsərhəd olan digər rayonlarda yaranmış vəziyyət müzakirə edilmiş, görüləcək zəruri sabitləşmə tədbirləri haqqında məsələyə baxılmış, Ermənistanla hava və quru sərhədin müvəqqəti olaraq bağlanması haqqında qərar qəbul olunmuşdur[20].

Aprelin 21-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsgəran, Hadrut, Mardakert, Martuni rayonları və Stepanakert şəhərinin inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" qərar qəbul etmişdir. Bu qərara əsasən muxtar vilayətin ərazisində 9 yeni kənd şurası, bir qəsəbə şurası və bir rayon tabeliyində olan Xocalı şəhəri yaradılmışdır[21]. Bu qərarın qəbul edilməsində məqsəd Ermənistandan olan azərbaycanlı qaçqınların bir hissəsini Xocalı rayonunda yerləşdirmək və beləliklə Şuşa ilə yanaşı Xocalını muxtar vilayətin azərbaycanlılar yaşayan ikinci iri yaşayış məntəqəsinə çevirmək idi. Lakin bu tədbirlərə baxmayaraq Xocalı hava limanı vasitəsilə Ermənistandan silahlı qrupların DQMV-yə daxil olması və bura silah-sursatın daşınması dayanmırdı. DQMV ərazisində silah və döyüş sursatı olan anbarlar yaradılmışdı. Yaraqlılar Ermənistan SSR-dən DQMV-yə "tikinti dəstələrinin", "elmi-tarixi ekspedisiyalar" ın iştirakçıları adı altında gəlirdi və yerli erməni əhalinin qeyd-şərtsiz dəstəyindən istifadə edirdilər. DQMV-də vəziyyət gərginləşməyə davam etmiş, ermənilərin silahlı birləşmələri ilə

[19] Материалы XXXII съезда Коммунистической партии Азербайджана., с. 171,175
[20] Бакинский рабочий, 1990, 29 марта
[21] Yenə orada.1990, 22 апреля

SSRİ DİN-nin hissələri və Sovet ordusunun silahlı birləşmələri arasında toqquşmalar başlanmışdır. Bunun nəticəsi olaraq 25 iyul 1990-cı ildə SSRİ prezidenti M. S. Qorbaçov "SSRİ-nin qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmələrin yaradılmasının qadağan edilməsi və qanunsuz saxlanıldığı halda silahların götürülməsi haqqında" fərman imzalamışdır[22]. Fərmandan irəli gələn vəzifələri yerinə yetirilməsində SSRİ DİN-nin və sovet ordusunun hissələri yanaşı, 1990-cı ilin mayında Azərbaycan SSR DİN-in tabeliyində yaradılmış Xüsusi Təyinatlı Milis dəstələri də fəal iştirak etmişdilər. Bu birgə əməliyyatlar 1991-ci ilin payızına kimi davam etmişdir.

1990-cı ildə Azərbaycan SSR -nin ictimai-siyasi həyatında ən mühüm hadisələrindən biri də on ikinci çağırış Ali Sovetə keçirilən seçkilər oldu. Bu Azərbaycan SSR tarixində Ali Sovetə keçirilən son seçkilər idi. Keçirilməsi 1990-cı ilin yazında nəzərdə tutulan parlament seçkilərinin vaxtı “Qanlı Yanvar” hadisələrindən sonra respublikada yaranmış gərgin ictimai-siyasi vəziyyətlə əlaqədar təxirə salınmışıdır. Nəhayət, 30 sentyabr 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinə seçkilər keçirildi. Bu, yenidənqurma başlandıqdan sonra respublikanın Ali Sovetinə keçirilən ilk seçkilər idi və buna görə də xüsusi şəraitdə təşkil olunmuşdu. Bu seçkilər nəticəsində ilk dəfə olaraq kommustlər və bitərəflərlə yanaşı, AXC -nin üzvləri də deputat mandatı almışdılar. "Qabaqcıl südçülər və fəhlələr”dən ibarət Ali Sovetlər dövrü artıq keçmişdə qalsa da, yenə də deputat mandatlarının əksəriyyətini partiya-təsərrüfat nomenklaturası əldə etmişdir. Yeni parlamentdə 360 yerdən müxalifət deputatlar yalnız 30 yer aldı.

Yeni təşkil olunmuş parlament kommunist çoxluğunun güclü təsirinə baxmayaraq bir sıra mühüm qanunlar qəbul etdi. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Cümhuriyyətinin bayrağı Dövlət Bayrağı kimi təsdiq olundu.

Lakin süqutu labüd olan SSRİ-ni xilas etmək üçün Moskva yeni İttifaq müqaviləsi hazırlamış və mətbuatda dərc etmişdir. Azərbaycanın kommunist rəhbərliyi bu layihənin hazırlanmasının iştirakçısı olmuş və SSRİ Ali Sovetinin sessiyasında onu müdafiə etmişdi. SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün Azərbaycan Respublikasının Ali Sovetində çoxluq təşkil edən kommunistlər referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdilər. Ermənistanın boykot etdiyi referendumda Azərbaycanın iştirakının Moskvanın Qarabağ məsələsində münasibətini ikincinin xeyrinə dəyişəcəyi xülyası da buna az təsir göstərmədi. Azərbaycanın demokratik qüvvələri referendumu boykot etdilər. Martın 17-də keçirilmiş

[22] Бакинский рабочий, 1990, 26 июля

"referendum"un nəticələri saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin tam əksəriyyəti SSRİ-nin saxlanılması lehinə oldu.

1991-ci ilin apreli-may aylarında SSRİ Daxili İşlər qoşunlarının və Azərbaycanın Xüsusi Təyinatlı Milis Dəstələri Xanlar və Goranboy rayonlarının bir sıra kəndlərinin erməni yaraqlarından təmizləmək üçün "Halqa" (Çaykənd) adlı birgə əməliyyat keçirmişdilər. Bu əməliyyat Bakının Kremldə Qorbaçov kursuna qarşı müqavimət göstərməyə çalışan hərbi-siyasi dairələri ilə yeni taktiki əməkdaşlığı sayəsində mümkün olmuşdur. Əməliyyatın keçirilməsinə razılığını verən bu dairələr SSRİ-nin saxlanması üçün keçirilən referendumda iştirak etməyən Ermənistanı cəzalandırmaq istəyirdi. Əməliyyat nəticəsində 20-dən çox yaşayış məntəqəsində erməni silahlı birləşmələri tərksilah edilmiş, onların dayaq məntəqələri ləğv edilmiş, Bakı ilə Gəncə arasında kommunikasiya əlaqələrinin təhlükəsizliyi təmin edilmişdi. 1991-ci ilin may-iyun aylarında Hadrut rayonunda və Şuşa-Laçın yolu boyunca yerləşən erməni kəndlərində keçirilən xüsusi tədbirlər nəticəsində çoxsaylı yaraqlılar yaxalanıb tərksilah edilmişdir. Lakin Moskvadakı 1991-ci ilin avqust hadisələrindən sonra SSRİ Daxili Qoşunlarının münaqişə zonasından tədricən çıxarılması şəraitində erməni silahlı birləşmələri Dağlıq Qarabağda öz təcavüzünü genişləndirməyə başladılar. Bunun nəticəsində Xankəndində fəaliyyət göstərən Respublika Təşkilat komitəsinin işi iflic olmuşdur. Ermənilər bölgədə yerləşmiş sovet hərbi hissələrinin silah-sursatını ələ keçirməyə nail olmuşdular. Bundan başqa Xankəndidə yerləşən, əsgər və zabit heyətinin bir hissəsi ermənilərdən ibarət olan sovet ordusunun 366 motoatıcı alayı erməni separatçılarının tam ixtiyarında idi.

1991-ci il avqustun 19-21-də Moskvada SSRİ-nin saxlanmasına yönəlmiş və uğursuzluqla nəticələnmiş dövlət çevrilişindən sonra imperiyanın süqutu daha da sürətləndi və onun tərkibində olan müttəfiq respublikalar bir-birinin ardınca müstəqilliklərini elan etdilər. Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat - "Azadlıq Bəyannaməsi" qəbul etdi. Avqustun 29-da SSRİ Ali Sovetinin qərarı ilə ölkə ərazisində Sov.İKP fəaliyyətinin dayandırılması haqqında qərar qəbul olunsa da Azərbaycanın Kommunist rəhbərliyi bu qərarın icrasını respublikada elan olunmuş prezident seçkilərindən sonraya saxlamışdı. Çünki iqtidarın yerlərdə seçki kampaniyası rəhbər partiya nomenklaturasının nəzarəti altında təşkil olunmuşdu. Nəticədə Naxçıvan Muxtar SSR-nin Ali Məclisinin və AXC-nin qanunsuz elan etdikləri sentyabrın 8-də keçirilən seçkilərdə A.Mütəllibov yeganə namizəd olaraq yenidən prezident elan olunmuşdur. Məhz bundan sonra sentyabrın 14-də Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayında buraxıldığını elan etmişdir. Beləliklə 1920-ci ilin fevralında yaradılmış və 71 il respublikada yeganə hakimiyyət partiyası olan Azərbaycan Kommunist partiyası fəaliyyətini dayandırmışdı.

Azərbaycan Respublikası öz müstəqilliyini elan etməsinə baxmayaraq 1978-ci ildə qəbul olunmuş Sovet Konstitusiyası qüvvədə idi. Buna görə yeni, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilənədək 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilmişdi. Konstitusiya Aktında qeyd olunurdu ki, Azərbaycan dövləti müstəqil, unitar və dünyəvi dövlətdir. Konstitusiya Aktının 2 bəndində xüsusilə qeyd olunurdu ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Bu o demək idi ki, 1922-ci ildə SSRİ-in yaranması haqqında imzalanmış İttifaq müqaviləsinin Azərbaycana aid maddələri hüquqi qüvvəsini itirirdi. Beləliklə, 71 ildən sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi.

## 2. Heydər Əliyevin həyatının Moskva dövrü və Azərbaycan. Qayıdışın ilk mərhələsi

Heydər Əliyevin həyatının Moskva dövrü və bu dövrdə Azərbaycana dair fəaliyyəti, eyni zamanda Azərbaycan tarixinin tərkib hissəsi olmuşdur. 1982-1990-cı illəri əhatə edən bu dövrü iki yerə bölmək olar: Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi sovet dövlətinin zirvəsində olduğu dövr (1982-1987) və Qorbaçovun rəhbərliyi ilə ağır təqib dövrü (1987-1990). Hər bir dövrün öz spesifikasına baxmayaraq, onları Heydər Əliyevin Azərbaycana dərin bağlılığı birləşdirirdi.

Heydər Əliyevin sovet dövlətinin zirvəsinə yolu Sov.İKP MK-nın 22 noyabr 1982-ci il tarixli plenumundan başlanmışdır. Həmin plenumda Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilmişdir. Noyabrın 23-də onuncu çağırış SSRİ Ali Sovetinin yeddinci sessiyasında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

Heydər Əliyev SSRİ-nin müsəlman respublikalarının rəhbər işçiləri arasında belə yüksək kürsüyə qalxan ilk şəxs idi. Bu, Heydər Əliyevin nüfuzundan xəbər verirdi. 7 may 1983-cü ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı ilə Kommunist Partiyası və Sovet dövləti qarşısında böyük xidmətlərinə görə Heydər Əliyev Lenin Ordeni və "Oraq və çəkic" ikinci qızıl medalı ilə təltif edilmişdir[23]. Həmin ilin iyunun 17-də Kremldə Sov.İKP MK-nın Baş katibi Yuri Andropov Heydər Əliyevə Lenin Ordenini və ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı Qızıl ulduzunu təqdim edərək qısa nitqində onu "partiyanın və Sovet dövlətinin görkəmli xadimi" adlandırmışdır[24].

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunan Heydər Əliyev sənaye, kənd təsərrüfatı, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət və incəsənət məsələləri ilə məşğul olurdu. Sovet dövlətinin vacib məsələlərini əhatə edən bu sahələrin fəaliyyətinə nəzarət etmək, onları düzgün istiqamətləndirmək, hər birinin spesifik problemləri ilə məşğul olmaq asan deyildi. Belə ağır və məsuliyyətli sahələri düzgün idarə etmək və onların hər birinin ritmik işini təmin etmək ucun böyük təcrübə, miqyaslı yanaşma və gərgin əmək tələb olunurdu.

Bu dövrdə sovet iqtisadiyyatının problemlərinin kökündə duran başlıca səbəblərdən biri onun idarə edilməsində inzibati amirlik sistemi idi. Zamanın tələblərinə cavab verə bilməyən ləng idarəetmə sistemi məsuliyyətsizliklər, bürokratik süründürməçiliklər üçün zəmin yaradır, mülkiyyət münasibətlərində mücərrəd mühit formalaşdırırdı. İstehsalda maddi maraq prinsipinin pozulduğu, təsərrüfatda fərdi məsuliyyətin olmadığı mücərrəd münasibətlər şəraitində ictimai mülkiyyət sahibsiz,

[23] Правда, 1983, 11 мая
[24] Кремлевские будни Гейдара Алиева. Москва, 2007, с.211

heç kimə məxsus olmayan mülkiyyət anlamına gəlib çıxmışdı. Bu dəyərlərə söykənən "sosialist" iqtisadiyyatının mənfi cəhətlərdən xilas edilməsi, sağlam məcraya qaytarılması, qondarma buxovlardan azad edilərək daxili işlək mexanizmləri olan iqtisadi sistem vəziyyətinə gətirilməsi üçün artıq çoxdan vaxtı yetişmiş prinsipial addımlar atılmalı idi. Heydər Əliyev "Əmək kollektivləri və onların müəssisə, idarə, təşkilatların idarə edilməsində rolunun artırılması" haqqında qanun layihəsinin əsas müəlliflərindən biri idi. Və təsadüfi deyil ki, məhz Heydər Əliyev 17 uyun 1983-cü ildə SSRİ Ali Sovetinin sessiyasında qanun layihəsi ilə bağlı əsas məruzə ilə çıxış etmişdir[25]. Qanunun əsas yeniliklərdən biri planların yalnız əmək kollektivləri tərəfindən nəzərdən keçirildikdən sonra dövlət orqanlarının təsdiqlənməsinə verilməsi haqqında maddə idi. Qanun ilk dəfə əmək kollektivi tərəfindən vəzifəli şəxslərin və komandanın digər üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi prinsipini təsbit edirdi. Müəssisələrdə rəhbər işçilərin təyin edilməsi və vəzifədən azad edilməsi əmək kollektivinin rəyi nəzərə alınmaqla həyata keçirilməli idi. Ölkənin ali qanunvericilik orqanında bir neçə müzakirədən keçmiş bu qanun 1986-cu ildə qəbul olunmuşdur.

Ölkə iqtisadi kompleksinin əsasını nəqliyyat təşkil edirdi. Heydər Əliyev Baykal-Amur magistralının (BAM) tikintisi üzrə komissiyanın sədri təyin edilmişdir. 1970-80-ci illərdə BAM SSRİ-nin ən mühüm tikinti obyektlərindən biri idi. Nəhəng ölkənin hər yerindən, o cümlədən Azərbaycandan buraya komsomol-gənclər dəstələri toplaşmışdı. Magistral yolunun keçdiyi ərazilərdə kömür, filiz və digər faydalı qazıntılar, meşə ehtiyatları aşkar edilmişdir. Magistral yol boyunca sosial infrastrukturun yaradılmasını tələb edən qəsəbə və şəhərlərin inşası planlaşdırılırdı. Bu nəhəng tikintinin başa çatdırılması üçün Heydər Əliyev 1984-cü il ərzində BAM-a bir neçə səfər etmişdir. 1984-cü ilin oktyabrında ölkənin bütün mərkəzi qəzetləri BAM inşaatçılarının əsas dəmir yolunun çəkilməsinin başa çatması və dəmir yolu xətti boyunca qatarların işçi hərəkətinin açılması barədə xəbər verirdilər.

Heydər Əliyevin fəaliyyətinin mühüm istiqamətlərindən biri də təhsil sistemi idi. Bu sahə ölkənin hər bir vətəndaşına, hər bir ailəsinə təsir edirdi və həmişə aktual idi. Bütövlükdə ölkənin sosial-iqtisadi və mədəni tərəqqisi bu sahənin inkişafından asılı idi. 4 yanvar 1984-cü ildə bütün mərkəzi qəzetlərdə Sov.İKP MK-nın "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri" layihəsi dərc edilmişdir[26]. Bu mühüm partiya sənədinin əsas müəlliflərindən biri SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev olmuşdur. Layihədə deyildiyi kimi islahatın əsas vəzifələri təhsilin keyfiyyətini artırmaq, tədris planlarını və proqramlarını, dərsliklərini və dərs vəsaitlərini təkmilləşdirmək, şagirdlərin həddən artıq yüklənməsini aradan qaldırmaq, ümumtəhsil məktəbində əmək tərbiyəsi, təlim və peşə yönümünün formalaşmasını əsaslı şəkildə yaxşılaşdırmaq, tədrisin politexnik, praktik istiqamətini gücləndirmək,

[25] Правда, 1983, 18 июня
[26] Yenə orada, 1984, 4 января

ümumtəhsil və peşə məktəbinin strukturunu və xalq təhsilinin idarə edilməsini təkmilləşdirmək və s. idi. 12 aprel 1984-ci ildə on birinci çağırış SSRİ Ali Sovetinin ilk sessiyasında Heydər Əliyev ümumtəhsil və peşə məktəbinin islahatının əsas istiqamətləri haqqında əsas məruzə ilə çıxış etmişdir. Məruzənin yekunu olaraq "Ümumtəhsil və peşə məktəbi islahatlarının əsas istiqamətləri" qanun layihəsi SSRİ Ali Sovetinin xüsusi qərarı ilə təsdiq edildi.

Kremldə işlədiyi dövrdə Heydər Əliyevin ən mühüm fəaliyyət istiqamətlərindən biri beynəlxalq münasibətlər üzrə olmuşdur. Heydər Əliyev tez-tez xarici səfərlərdə Sovet nümayəndə heyətlərinə rəhbərlik edirdi. Heydər Əliyev Siyasi Büroda SSRİ-nin xarici siyasətinin şərq istiqamətinə nəzarət edirdi. O, 1983-1986-cı illər ərzində Vyetnam, Suriya, Şimali Koreya, Laos və Anqolaya gedən dövlət nümayəndə heyətlərinə rəhbərlik etmişdir. Bundan əlavə, Heydər Əliyev ölkə daxilində Qərbi Avropa, sosialist düşərgəsi və üçüncü dünya ölkələrinin dövlət xadimlərini qəbul edirdi, həmin ölkələrlə siyasi və mədəni əlaqələrin inkişafında mühüm rol oynayırdı. Bu görüşlər zamanı Heydər Əliyev özünü bacarıqlı diplomat kimi göstərmişdir.

İstər Azərbaycanda, istər Moskvada işlədiyi dövrdə Heydər Əliyev işində həmişə insanlarla birbaşa canlı ünsiyyətə böyük əhəmiyyət verib. Buna görə də SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini olduğu dövrdə Heydər Əliyev ölkəni qarış-qarış gəzirdi. Bu səfərlərin məqsədi yerlərdə nələrin baş verdiyini hiss etmək idi, aparıcı müəssisələrin işi ilə tanış olmaq, onların kollektivlərinin problemlərini öyrənmək idi. Eyni zamanda bu dövrdə Heydər Əliyev RSFSR Ali Sovetinə deputat seçildiyi üçün öz seçiciləri ilə görüşlərə xüsusi diqqət yetirirdi.

Moskvada işləyərkən Heydər Əliyev Azərbaycanı heç vaxt unutmurdu. Azərbaycandan ayrılarkən Heydər Əliyev 1982-ci ilin dekabrın 3-də keçirilən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda iştirak etmiş və geniş nitq söyləmişdir. O, nitqində Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində işlədiyi dövrə yekun vurmuşdur. Məhz Heydər Əliyevin titanik əməyi nəticəsində 1970-ci illərdə Azərbaycan iqtisadiyyatının geriləməsinin qarşısı alındı və Moskvaya sənayenin inkişafı və dövlətə kənd təsərrüfatı məhsullarının tədarükü planlarının yerinə yetirilməsi barədə hesabatlar gəlməyə başladı.

Heydər Əliyev Moskvada sovet dövlətinin zirvəsində çalışdığı dövrdə, 1987-ci il istisna olmaqla adətən hər il məzuniyyətə Azərbaycana gəlirdi. Məzuniyyət yalnız şərti olaraq Heydər Əliyev üçün istirahət vaxtı hesab edilirdi. O, Azərbaycanda məzuniyyətdə olanda da işini davam etdirirdi. Daim respublikanın rayonlarını gəzirdi, müxtəlif sənaye və sosial təyinatlı müəssisələri ziyarət edirdi. Heydər Əliyev neft və qaz sənayesi obyektlərinə xüsusi diqqət yetirirdi. Bu dövrdə Heydər Əliyevin dəstəyi sayəsində Azərbaycanda bir sıra iqtisadi və mədəni təyinatlı obyektlər tikilmiş və ya yenidən bərpa edilmişdir: Siyəzəndə quşçuluq təsərrüfatı salınmışdır, Gəncədə

avtomobil zavodunun tikintisinə, Gənc Tamaşaçılar Teatrının yenidən qurulmasına başlanılmışdır və s. Heydər Əliyevin planlarında Xəzər sahilini İttifaq əhəmiyyətli kurort mərkəzinə çevirmək mühüm yer tuturdu. Bu barədə təklif hələ 1982-ci ilin sentyabrında L. Brejnevin Bakıya son səfəri zamanı irəli sürülmüşdü. Müvafiq qərar 1982-ci ildə, Heydər Əliyevin Moskvaya getməsindən əvvəl qəbul edilmişdir. Bu qərara əsasən, obyektlərin tikintisi üzrə işlər Heydər Əliyevin Moskvada yüksək vəzifələrdə olduğu dövrdə başlanmış və 1987-ci ildə onun həmin vəzifələrdən istefa verənə qədər yüksək sürətlə davam etmişdir.

1985-ci ilin martın 11-də Sov.İKP MK Siyasi Bürosunun iclasında M. Qorbaçovun Sov. İKP MK-nın yeni Baş katibi seçildiyi iclasda Heydər Əliyev onu dəstəkləmişdir. Heydər Əliyevin dəstəyi Qorbaçovun seçilməsində mühüm amil olmuşdur. Lakin Qorbaçov ölkə rəhbərliyinə ilk günlərindən Heydər Əliyevə qarşı qərəzli mövqe tutmağa başladı.

Nəticədə 21 oktyabr 1987-ci ildə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun tərkibindən çıxarılmış və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilmiş, SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri təyin edilmiş və Sov.İKP MK-nın üzvü kimi qalmışdır. Lakin Qorbaçov bu halda belə Heydər Əliyevə qarşı qərəzli mövqe tutmaqda davam etmişdir. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Sovet Sədrinin birinci müavini vəzifəsindən azad edilməsi nəticəsində onun həyatının Moskva dövründə olduqca gərgin yeni, sovet rəhbərliyi tərəfindən təqiblər dövrü başlandı. Məhz bu dövrdə Heydər Əliyevin görkəmli dövlət xadimi kimi Azərbaycan üçün rolu bir daha önə çıxdı.

Heydər Əliyevin Sovet İttifaqının ali rəhbərliyindən kənarlaşdırılması Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) erməni separatçılarına, onların Moskva və Yerevandakı havadarlarına vilayəti Azərbaycandan ayırmaq üçün hərəkətə keçməyə yol açdı. Qorbaçov həmişə çıxışlarında Qarabağ münaqişəsinin səbəblərini Azərbaycanın keçmiş rəhbərliyinin və ilk növbədə Heydər Əliyevin fəaliyyətində axtarmağa çalışırdı. 1988-ci fevralın 29-da Sov.İKP MK Siyasi Bürosunun iclasında Sumqayıt hadisələri müzakirə olunarkən çıxış edən Qorbaçov Heydər Əliyevə qarşı bir sıra iddialar bildirməyi də unutmamışdır. Baş katibin "qəzəbinə" səbəb olan o idi ki, Əliyev Azərbaycan KP MK-nın birinci katibi olduğu zaman guya Bakıda qəbul etdiyi erməni katolikosu Vazgenə qarşı hörmətsizlik edərək, ona erməni kilsəsində ibadət etməyə icazə verəcəyini söz verib, lakin sonuncunun bu arzusu yerinə yetirilməyib. Qorbaçovu qıcıqlandıran digər səbəb Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi olduğu dövrdə DQMV-nə səfərlərindən birində verdiyi belə bəyanat olub: "Qarabağ Azərbaycanın olub və həmişə də olacaq"[27]. Qorbaçovun

[27] **Российский Государственный Архив Новейшей Истории, фонд 89, опись 42, дело 18, листы 6,8**

rəhbərliyi ilə Heydər Əliyevə qarşı İttifaq miqyasında əks təbliğatın təşkil olunması da xüsusi qeyd edilməlidir.

Buna baxmayaraq, Heydər Əliyev ağır təqib şəraitində də Azərbaycanın mövqelərini qorumaqda davam edirdi. Heydər Əliyev 1988-ci ilin mayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Əbdürrəhman Vəzirov təyin edilməsini səhv addım kimi qiymətləndirmişdir. Hadisələrin sonrakı inkişafı bu fikrin tamamilə doğru olduğunu təsdiq etdi.

Heydər Əliyev 1989-cu ildə Sov.İKP MK-nın Aprel plenumunda Qarabağ məsələsi ilə bağlı öz mövqeyini bildirmiş, ermənilərin və onların Kremldəki himayədarlarının Azərbaycanın keçmiş rəhbəri kimi onun ünvanına müxtəlif səviyyələrdə səsləndirilən ittihamlarını rədd etmişdir[28]. Həmin plenumun qərarı ilə Heydər Əliyev Sov.İKP MK üzvlüyündən çıxarılmış və təqaüdə göndərilmişdir. Lakin buna baxmayaraq, o 1990-cu ilin ortalarınadək RSFSR Ali Sovetinin deputatı olmuşdur.

Kremlin Dağlıq Qarabağ məsələsində birmənalı olmayan mövqeyi getdikcə münaqişə tərəfləri arasında şiddətli qarşıdurmaya və hər iki tərəfdə mərkəzi hökumətə qarşı inamsızlığın artmasına səbəb oldu. Sov.İKP MK-nın Qarabağ məsələsində yürütdüyü xətt 1990-cı ildə 20 yanvar faciəsilə nəticələndi. Bakıda fövqəladə vəziyyətin elan olunması barədə fərmanı imzalamazdan əvvəl Qorbaçov o dövrdə Moskvada faktiki olaraq ev dustaqlığı və Dövlət Təhlükəsizlik Komitəsinin nəzarəti altında yaşayan Heydər Əliyevə zəng edərək Bakıdakı iğtişaşlara görə məsuliyyəti onun üzərinə qoyaraq, hadisələrə təsir göstərməsini tələb etdi. Heydər Əliyev Qorbaçovun bu iddiasına da layiqli cavab verdi.

1990-cı il Yanvar faciəsində sonra Moskva Bakıdakı hadisələr ətrafında sərt informasiya blokadası yaratmağa çalışdı. Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycan Respublikasının gələcək Prezidenti İlham Əliyev ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək tarixi çıxış etdi və Bakıdakı hadisələr ətrafında yaranmış informasiya blokadasını yardı. Heydər Əliyev çıxışında Bakıda baş verən faciəli hadisələrin əsas səbəbi olan Qarabağ məsələsində Kreml və respublika rəhbərliyinin yol verdiyi səhvləri açıqladı. O, xüsusilə qeyd etdi ki, əgər Dağlıq Qarabağda mürəkkəb vəziyyətin başlanğıcında, ölkənin siyasi rəhbərliyi və başda Vəzirov olmaqla Azərbaycan rəhbərliyi tərəfindən lazımi tədbirlər görülsəydi, iki il ərzində hər iki tərəfdən baş verən gərginlik və itkilər, 19-20 yanvar 1990-cı il tarixində insan tələfatına çevrilən hərbi aksiya baş verməzdi[29]. Elə həmin gün Heydər Əliyev Azərbaycan KP MK-ya məktub göndərərək Azərbaycan xalqına başsağlığı vermişdir.

Heydər Əliyevin Moskvadakı Azərbaycan nümayəndəliyindəki çıxışı böyük əhəmiyyət kəsb edirdi və faktiki olaraq Qorbaçovun "yenidənqurma"sının rekviyemi

---

[28] Материалы Пленума Центрального Комитета КПСС 25 апреля 1989 года. Москва: 1989, с 41-42

[29] Qayıdış (1990-1993). Bakı, 2008, s. 16-18.

oldu. Həmin gün bütün xarici radiolar və mətbuat orqanları Əliyevdən sitat gətirirdilər, Azərbaycan nümayəndəliyinə toplaşan xarici müxbirlər isə ondan müsahibə almağa çalışaraq Əliyevi mühasirəyə almışdılar. Moskva bu demarşı Əliyevə bağışlamadı. Əliyevin Azərbaycanın Moskvadakı nümayəndəliyində çıxışından iki həftə sonra, 4 fevral 1990-cı ildə "Pravda" qəzetinin səhifələrində Heydər Əliyevi barədə böhtan dolu böyük bir məqalə dərc edildi. Yanvar faciəsində sonra Heydər Əliyev Azərbaycana qayıtmağa qərara gəldi. Çünki artıq onu Moskva ilə heçnə bağlamırdı. Bu nə qədər çətin və təhlükəli addım olsa da, o, xalqının bu ağır vəziyyətində onun yanında olmağa özünə borc bilirdi.

1990-cı il iyulun 20-də təyyarə ilə Moskvadan Bakıya qayıdan Heydər Əliyev hakimiyyətin təzyiqləri nəticəsində iki gündən sonra - iyulun 22-də paytaxtı tərk edərək Naxçıvana getdi. O, 1990-cı ilin sentyabrında Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR parlamentinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Dövlət Bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Muxtar Respublika Ali qanunverici orqanı "Ali Məclis" adlandırıldı. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 Yanvar faciəsinə siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika başçıları Ə.Vəzirovun və onun əlaltılarının günahkar olduqlarını qeyd etdi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də respublika rəhbərliyinin dəstəklədiyi yeni İttifaq müqaviləsinə qarşı çıxması oldu. O, Naxçıvan MR Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında çıxışı zamanı göstərmişdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev SSRİ-nin saxlanmasına münasibət bildirilməsi üçün təşkili nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı və Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdar olduğunu bildirdi. Heydər Əliyev respublika rəhbərliyinin əməldə müstəqillik əleyhinə olduğunu, bunu iqtisadi çətinliklər, uydurma "vətəndaş müharibəsi təhlükəsi" kimi amillərlə əsaslandırmağa çalışdığını, Bakıda fövqəladə vəziyyəti ləğv etmək istəmədiyini və bütün bunların hakimiyyəti əldə saxlamaq niyyətindən irəli gəldiyini göstərdi[30].

Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan MR Ali Məclisi 1991-ci il martın 14-də referendumda iştirak etməmək haqqında qərar qəbul etdi. İqtidarın

[30] Səs q., 1991, 15 mart.

bunu "separatçılıq" kimi qiymətləndirməsi, muxtar respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Azərbaycanın demokratik qüvvələri referendumu boykot etdilər. Martın 17-də keçirilmiş "referendum"un nəticələri saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin tam əksəriyyəti SSRİ-nin saxlanılması lehinə oldu.

Beləliklə, Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə, Kommunist Partiyasına və Sovet hökumətinə açıq etirazını bildirir, onların riyakar siyasətini ifşa edirdi. Heydər Əliyevin bəyanatlarında İttifaq və respublika rəhbərliyini 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı edilmiş cinayətin üstünü açmamaqda, günahkarları üzə çıxarmamaqda, mərkəzin erməni separatçılarına havadarlığı sayəsində Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətdə, vilayətin əslində tamamilə Azərbaycan dövlətinin idarəçiliyindən çıxarılmasında, demokratikləşmə, siyasi azadlıqlar və plüralizm bəyan edilən bir dövrdə Azərbaycanda demokratik hərəkat və cəmiyyətin demokratikləşdirilməsini əngəlləməkdə təqsirləndirdi. 1991-ci il iyulun 19-da Heydər Əliyev Kommunist Partiyası sıralarından çıxdı. Naxçıvan Muxtar respublikasının Ali Məclisinin 26 avqust 1991-ci il tarixli qərarı ilə burada Azərbaycan Kommunist partiyasının fəaliyyəti dayandırılmış və onun yerli strukturları ləğv olunmuşdur.

1991-ci il avqustun 29-30-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında etdiyi çıxışlarda Heydər Əliyev az əvvəl SSRİ-nin saxlanmasına dair keçirilmiş referendum nəticələrinin və Bakıda hərbi vəziyyətin ləğv olunmasını və 20 yanvar faciəsinə siyasi qiymət verilməsini, Azərbaycan Kommunist Partiyasının dərhal hakimiyyətdən getməsini, parlamentin buraxılmasını və yeni seçkilərin keçirilməsini tələb etmişdir[31]. Heydər Əliyev haqlı olaraq hesab edirdi ki bütün bu məsələlər həll olunmadan Azərbaycanda prezident seçkilərinin keçirilməsi qanunsuzdur. Naxçıvan MR Ali Məclisi 1991-ci il sentyabrın 3-də Heydər Əliyevi Ali Məclisin sədri seçdi. Ali Məclisinin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı. Sentyabrın 8-də keçirilən prezident seçkilərində iqtidar xalq arasında böyük nüfuza malik olan Heydər Əliyevin prezident seçilə biləcəyindən təşvişə düşüb qanuna yaş senzi və son beş ildə Azərbaycanda yaşamaq haqqında tələbi daxil etdi. Xalq bu məhdudiyyətlərin götürülməsini tələb edərək, mitinqlər keçirirdi. Lakin 8 sentyabr seçkilərinin nəticələrinə görə A. Mütəllibov yenidən prezident elan olundu.

Heydər Əliyevin Azərbaycanın müstəqillik uğrunda mübarizəsi öz bəhrəsini verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bu tarixi hadisədən sonra Heydər Əliyevin imzası ilə Naxçıvan Ali Məclisi tərəfindən Azərbaycanın ali qanunvericilik orqanının ünvanına təbrik məktubu göndərildi. Həmin məktubda qəbul

---

[31] Qayıdış (1990-1993)., s. 181-186

olunmuş sənədlə bağlı Azərbaycan xalqı təbrik edilir və bunu Azərbaycanın bütün demokratik qüvvələrinin qələbəsi kimi qiymətləndirmişdi[32].

[32] Qayıdış (1990-1993).s. 239